DOI: https://doi.org/10.36719/2789-6919/29/31-34

**Yasər Rüstəmov**
Lənkəran Dövlət Universiteti
magistrant
yaser051666821@gmail.com

# XIX ƏSR AZƏRBAYCAN MAARİFÇİLƏRİNİN ƏDƏBİ İRSİNDƏ VƏTƏNPƏRVƏRLİK MÖVZUSUNUN TƏDRİSİ METODİKASI

**Xülasə**

Azərbaycan Respublikasının məktəblərində müstəqil, yaradıcı düşünən, yüksək mədəniyyətə malik, milli mənəviyyatlı şəxsiyyətin-insanın tərbiyə edilməsi dövlət əhəmiyyətli məsələdir. Bu sahədə dövlətin siyasəti və bu siyasətin prinsipləri işlənib hazırlanmışdır.

Humanitar fənlərin tədrisinin səmərəliliyinin artırılması, təbii ki, öz növbəsində gənc nəslin təlim-tərbiyəsində mühüm əhəmiyyət daşıyır. Humanitar fənlərin tədrisi prosesində şagirdlər xalqın maddi və mənəvi dəyərlərinə yiyələnir, nəsillərin mənəviyyatı və əxlaqı tarixi ənənələr əsasında formalaşıb zənginləşir. Bu gün Azərbaycana vətənpərvər insanlar daha çox lazımdır. Belə şəxslər xalqın firavan, xoşbəxt yaşaması üçün əlindən gələni etməklə, lazım gələndə canlarından belə keçməyi bacarırlar. Deməli, vətənpərvərlik tərbiyəsini məhz günün tələbləri səviyyəsinə qaldırmaq vacib problemlərdən biridir. Gənc nəsildə vətənpərvərlik hissi bu və ya digər səviyyədə təşəkkül tapmışdır. Bu hissi daha da inkişaf etdirmək lazımdır.

Məqalədə XIX əsr Azərbaycan maarifçilərinin ədəbi irsində vətənpərvərlik mövzusunun tədrisi metodikası, üsul və yolları araşdırılaraq təhlilə cəlb edilir.

***Açar sözlər:*** *maarifçilik, metodika, Azərbaycan, ədəbiyyat, vətənpərvərlik*

**Yasar Rustamov**
Lankaran State University
master student
yaser051666821@gmail.com

## Teaching methodology of the subject of patriotism in the literary heritage of 19th century Azerbaijan educators

**Abstract**

Education of an independent, creative thinker, highly cultured, nationally-spiritual personality in the schools of the Republic of Azerbaijan is a matter of state importance. The state policy and the principles of this policy have been developed in this area.

Increasing the efficiency of the teaching of humanitarian subjects, of course, is of great importance in the education of the young generation. In the process of teaching humanitarian subjects, students acquire the material and moral values of the nation, the spirituality and morality of generations are formed and enriched based on historical traditions. Today, Azerbaijan needs more patriotic people. Such people do everything they can for the people to live prosperously and happily, even when necessary, they are able to give their lives. Therefore, it is one of the important problems to raise the education of patriotism to the level of today's requirements. The feeling of patriotism in the younger generation has been formed at one level or another. This feeling needs to be developed further.

In the article, the methodology, methods and ways of teaching the subject of patriotism in the literary heritage of the 19th century Azerbaijani intellectuals are investigated and analyzed.

***Keywords:*** *enlightenment, methodology, Azerbaijan, literature, patriotism*

## Giriş

Ədəbiyyat şagirdin şəxsiyyətinin, dünyagörüşünün, zövqünün, ünsiyyət və idrak qabiliyyətlərinin formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edən fənndir. İnsan kapitalının yaradılmasında, rəqabətqabiliyyətli təhsil nəticələrinin formalaşmasında tədris ədəbiyyatının rolu böyükdür. Ədəbi əsərlərin tədrisi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilində yazılmış əsərlərdə dilin gözəlliyini, dərin düşüncə zənginliyini, ifadəliliyini görürlər. Tədris prosesində obrazlı sözün yaratdığı bədii sözdən istifadə bacarıqları, bədii ifadəlilik, ifadəlilik, emosionallıq və düşüncə qabiliyyəti haqqında aydın təsəvvür yaranır, bunun əsasında şagirdlərin öz nitqi zənginləşir. Azərbaycan gəncliyi xalqların minilliklər boyu formalaşmış və onların davranışlarını, etnik davranışlarını və intellektini mənimsəmiş mədəni nailiyyətləri mənimsəməlidir ki, onlar mədəni nailiyyətləri və dəyişən dünyanın genezisi ilə şüurlu şəkildə qavrasınlar və mədəni irsini müəyyən etsinlər. Müşahidələr göstərir ki, bu xalqın ədəbiyyatı iqtisadi, sosial və texnoloji yeniliyin əsasını təşkil edir. Bu da özlüyündə orta məktəbdə ədəbiyyat fənninin məzmununun yenilənməsini, yeni məzmun və çalar almasını zəruri edir. Şagirdlərin bilik və bacarıqlarının formalaşmasında, zəruri fənn materiallarının seçilməsi və dərsliklərə salınması, onların yetişməkdə olan nəslə öyrədilməsi müasir mürəkkəb mədəni-ideoloji mübarizədə xüsusi əhəmiyyət kəsb edir. Yaddaş məktəbindən düşüncə məktəbinə, ənənəvi təhsil proqramlarından yeni fənn planlarına, yeni tədris metod və formalarına keçidi şərtləndirən müasir ictimai şüur və ictimai münasibətlər hər bir fənn üzrə yeni yol strategiyası müəyyən etmişdir (Əhmədov, 1983: 54).

Uşaqların vətənpərvərlik tərbiyəsi bütün dövrlərdə mütəfəkkirləri və pedaqoqları maraqlandırmış və bu problem bu gün də öz aktuallığını qorumuşdur. Vətənpərvərlik hissinin inkişaf etdirilməsi - Vətənə məhəbbət, öz xalqına, onun uğurlarından, iftixar hissi, Vətənin düşmənlərinə nifrət, onun çiçəklənməsi uğrunda fəal mübarizə bütün ictimai formasiyalarda dövrünün zəka sahiblərinin həmişə diqqət mərkəzində olmuş, yeniyetmələrin vətənpərvər kimi yetişməsi Azərbaycan folklorunun yazılı ədəbiyyatının, elmi tədqiqat əsərlərinin əsas leytmotivini təşkil etmişdir.

Azərbaycan maarifçilərindən N.Gəncəvi, A.A.Bakıxanov, H.B.Zərdabi, S.Ə.Şirvani, M.Ə.Sabir, N.B.Vəzirov, M.T.Sidqi, M.F.Axundov, S.Vurğun və b. gənc nəslin vətənpərvərlik tərbiyəsinə yüksək əhəmiyyət vermişlər. Onlar öz əsərlərində dönə-dönə qeyd etmişlər ki, vətənə məhəbbət hissi ən nəcib, ülvi və pak hissdir. Vətən anlayışına hər şeydən əvvəl bu və ya digər adamın, xalqın doğulduğu və yaşadığı ev, ailəni, ərazini, dili, mədəniyyəti, məişət və adətlərində olan xüsusiyyətləri, ictimai və dövlət quruluşunu, yeraltı və yerüstü sərvətləri və s. daxil edən maarifçilər bütün bunlara məhəbbəti əməli işlə, onun keşiyində durmaq, onu göz bəbəyi kimi qorumaq və vətənə fayda verməklə əlaqələndirmişlər.

Azərbaycanda maarifçilik ideyalarının təşəkkül tapması XVIII əsrin sonu – XIX əsrin əvvəllərinə təsadüf edir. XIX əsrdə Avropada yaranan maarif fəlsəfi fikrin Qərb ölkələri və Rusiyaya nisbətən Azərbaycanda gec yayılmasının səbəbi o zamanki Azərbaycanın sosial-mədəni, ictimai-siyasi mühiti ilə əlaqəli olmuşdur. Azərbaycanda maarifçilik Azərbaycanın ictimai mühitində yarandığından, təkcə Qərbin və Rusiyanın deyil, həm də Şərqin mütərəqqi ideoloji-fəlsəfi ənənələrindən istifadə etdiyi üçün özünəməxsus səciyyəvi cəhətlər qazanmış, orijinal inkişaf yolu tuta bilmişdir. Məhz buna görə də Azərbaycan maarifçiliyi ideyaları Azərbaycan xalqının milli dirçəlişinə və mədəni tərəqqisinə güclü təsir göstərmişdir (Əhmədov, Babayev, Mikayılov, 1966: 65).

XIX əsr Azərbaycan maarifçilik fəlsəfəsində azadlıq ideyalarının təşəkkülünün rolu yüksək qiymətləndirilmişdir. Azərbaycan ziyalıları xaricə təhsil almağa gedirdilər. Bu ölkələrdə oxuyaraq, həmin ölkələrin mənəvi və mədəni dəyərlərini öyrənərək vətənlərinə qayıdırdılar. Vətənə qayıdaraq bu dəyərləri öz milli dəyərləri ilə sintez etmiş, Azərbaycan xalqının ideologiyasının, fəlsəfəsinin, dünyagörüşünün formalaşmasına şərait yaratmışlar.

Nəticədə Azərbaycanda ümumbəşəriliyi ilə seçilən maarifçilik hərəkatı yaranmağa başladı. Azərbaycan ziyalısı sosial böhrandan çıxış yolunu məhz xalqın maariflənməsində görürdü. Bu baxımdan, XIX əsrdə Azərbaycan gerçəkliyinin sosial-mədəni inkişafının tələblərinə cavab verən

və ümumbəşəriliyi ilə seçilən maarifçilik hərəkatının ideologiyası və fəlsəfi baxışları formalaşdı (Aslanov, 2011: 56).

Bu dövrdə rus və Qərb şərqşünaslarına yaxın olan Abbasqulu Ağa Bakıxanov (1794-1847), Mirzə Şəfi Vazeh (1792-1852), İsmayıl bəy Qutqaşınlı (1801-1861) kimi mədəniyyət xadimləri və mütəfəkkirlər qabaqcıl humanist düşüncələrin, maarifçi ideyaların daşıyıcıları olmuş, Mirzə Fətəli Axundzadə isə onların çiyinlərinə söykənərək Azərbaycan ədəbiyyatını əbədi olaraq Rusiya və Qərblə bağlayaraq onu dünya ədəbiyyatları ailəsinə daxil etmişdir.

X sinif ədəbiyyat dərsliyində nəzərdə tutulmuş Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrünün tədrisi müzakirələrlə başlayır. 1-ci tapşırıqda qeyd olunduğu üzrə müzakirə XIX əsrdə Azərbaycan ədəbiyyatı, eyni zamanda o dövrün nümayəndələri haqqında şagirdlərin öyrəndikləri ətrafında cərəyan edir. Şagirdlərin həmin dövrdə yazıb-yaratmış hansı nümayəndələri tanıdıqları araşdırılır, onlar haqqında məlumatlılıq səviyyəsinə uyğun müzakirələr aparılır. Müzakirədə müəllim şagirdlərə istiqamətləndirici suallar verir. Şagirdlər VIII sinifdə tarix dərslərində XIX əsr ədəbiyyatı haqqında öyrəndiklərini yada salaraq fəallıq göstərirlər (Bünyadova, 2014: 45).

Layihə üzrə işə ədəbiyyat dərsliyində göstərilmiş istiqamətləndirici suallara cavabların oxunması ilə başlanılır. Bu suallar əsasən XIX əsrdə ədəbiyyatın inkişafına təsir göstərən ictimai-siyasi və ədəbi-mədəni mühit, ilk maarifçilik ideyalarının xüsusiyyətləri, həmin dövrdə yaranan poeziyanın əsas ideyası kimi mövzuları əhatə edir. Müəllim vaxta qənaət etmək üçün oxu prosesini şagirdləri müxtəlif qruplara bölərək ayrı-ayrı suallar təklif etməklə də həyata keçirə bilər. Oxu prosesinin uğurlu həyata keçməsi üçün şagirdlərə başqa ədəbiyyat mənbələrindən istifadə etmələri üçün şərait yaradılır. Belə ki, dərslikdə kifayət qədər məlumat olmadığından şagirdlərin tətqiqat aparması vacib hesab edilir. Müəllim şagirdlərin hansı istiqamət üzrə tədqiqat aparmasını onlara tam aşılamalıdır. Sonda fikir mübadiləsi olur, şagirdlər arasında qruplar şəklində müzakirələr aparırlar. Nəticədə ümumiləşdirmə aparmaq şərtdir. Yekunda isə şagirdlərin suallar ətrafında göstərdikləri fəallıq əsasında 4 səviyyədə qiymətləndirmə həyata keçirilir (Abbasov, 2011: 36).

Maarifçilik ideyalarının nümayəndəsi olan Mirzə Fətəli Axundzadə ədəbi irsinin tədrisinə ədəbiyyat proqramında 1 saat yer ayrılmışdır. Digər mövzularda da olduğu kimi bu mövzunun da tədrisinə başlayarkən müzakirələrdən geniş istifadə olunur. Şagirdlər 10-cu sinifə qədər Axundzadə haqqında öyrəndikləri ətrafında müzakirələrdə fəallıq göstərirlər. Belə ki, müəllim müzakirənin daha maraqlı keçməsini təmin etmək üçün internet vasitəsilə ədibin həyat və yaradıcıllığını əks etdirən “Sübhün səfiri” və ya “Mirzə Fətəli Axundov” filminin nümayişini həyata keçirə bilər. Ümumilikdə, Axundovun ədəbi irsinin əsasını təşkil edən beynəlmiləlçilik, vətənpərvərlik, ateizm ideyalarının hələ də aktual olması tədris zamanı müzakirə və mübadilə prosesində şagirdlərin diqqətinə çatdırılma baxımından vacib hesab olunur. Tədris prosesində nəzərdə tutulan 1 saat ərzində Axundovun ədəbi irsi haqqında yığcam müzakirələrə yer verilməsi, toxunduğu mövzular, ideayaların şagirdlərə aşılanması tədrisin uğurlu həyata keçməsinə gətirib çıxarır.

Dərslikdə M.F.Axundov haqqında məlumatın yetərli olmaması şagirdlərin tədqiqat işinin aparmasını vacib edir. Müəllim şagirdlərə ədibin yaradıcıllıq xüsusiyyətlərinin, onun ilk əsərlərində ictimai görüşlərinə daha çox yer verməsinin səbəblərinin araşdırılması haqqında şagirdlərə istiqamətləndirici suallar verir.

Bu mövzunun tədrisini müəllim müzakirə metodu vasitəsilə, həmçinin bunun digər formaları, yəni müzakirə xəritəsi, debat, akvarium kimi metodların tətbiqinə əsaslanmaqla təşkil edə bilər (Həsənli, Quliyev, Hüseynoğlu, 2007: 67)

Tədris prosesi zamanı Axundovun ədəbi irsində başlıca ideyalar əsas müzakirə obyekti olur. Ədibin əsərlərinin əsas qayəsini təşkil edən azərbaycançılıq, humanizm, vətənpərvərlik ideyalarının şagirdlərə aşılanması onların milli-mənəvi ruhda inkişafına təkan verən amillərdən hesab edilir. Bu zaman Axundovun əsərləri təhlil edilir, əsərlərdə əks olunan vətənpərvərlik motivləri şagirdlərin xüsusilə diqqətinə çatdırılır. Belə ki, müxtəlif obrazların, onlar arasında olan dialoqların təhlili zamanı bu motivlər əsasən özünü göstərir. Tədris prosesində şagirdlərin bu yönümlü araşdırma etməsi mühüm addım kimi qiymətləndirilir.

Belə ki, X sinif ədəbiyyat dərsliyində verilmiş M.F.Axundovun "Hekayəti-müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünü məşhur" əsərinin təhlilinə nəzər yetirdikdə burada müxtəlif obrazların nümunəsində vətənpərvərlik ideyaları özünü göstərməkdədir. Komediyadakı obrazların təhlili zamanı şagirdlərə məlum olur ki, dərviş Məstəli şah tədbirli bir fırıldaqçı, eyni zamanda avam, sadəlövh camaatı aldadan hiyləgər obrazdır. Bunun əksi olaraq Müsyo Jordan obrazı nəbatat alim, vətənpərvər bir şəxs kimi canlandırılır. Eyni zamanda əsərdə mühüm yer tutan Şahbaz bəy surəti daim yeniliyə can atan, inkişaf meyilli gənc kimi xarakterizə olunur (Xəlilova, 2011: 90).

Ədibin bu komediyasında insanları oyatmağa çalışması, öz xalqını yeniliyə, təhsil almağa, avam və cahillikdən uzaq həyata səsləməsi onun nə qədər vətənpərvər olması, vətəninin, xalqının gələcəyini düşünməsini bir daha göstərir. Eyni motivlər ədibin digər əsərlərində də özünü açıq şəkildə göstərir ki, bu tədris prosesi zamanı xüsusi əhəmiyyət daşıyır.

## Nəticə

Ümumiyyətlə, XIX əsr Azərbaycan ədəbiyyatında əsas istiqamət olan maarifçilik ideyasının yayılması xalqın oyanışı, inkişafı üçün mühüm addımların atılmasına gətirib çıxardı. Maarifçilik ideyalarının inkişafı bu ideyanın nümayəndələrinin əsərlərində vətənin inkişafı, millətin gələcəyi yönündə öz əksini tapırdı. Əsasən maarifçilər xalqı təhsilə, elmə, inkişafa səsləyirdilər. Onlar xaricdə təhsil alıb gəlir, gəncləri də milli oyanış yönündə istiqamətləndirirdilər. Bu ideyaların kökündə duran vətən və xalq sevgisi onların vətənpərvərlik ruhundan qaynaqlanırdı.

Azərbaycan ədəbiyyatı yaradıcılığına kiçik bir səyahət etməklə biz belə bir qənaətə gələ bilərik ki, milli vətənpərvərlik hissi ilə dolub-daşan əsərlərimiz bu gün də öz dəyərini qoruyub saxlayır. Elə buna görədir ki, öz milli təfəkkürləri ilə böyük ədəbi irs qoymuş həmin əsərlərin ideyaları bu gün də böyük məhəbbət və dərin hörmətlə qorunur.

## Ədəbiyyat


1. Abbasov, O. (2011). Dərsdə interaktiv təlim metodlarının tətbiqi vasitəsilə şagirdlərə milli dəyərlərin aşılanması. Azərbaycan dili və ədəbiyyatın tədrisi.
2. Aslanov, Y. (2011). Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından faydalanma vasitələri. Azərbaycan dili və ədəbiyyatın tədrisi. № l, s.31-34.
3. Bünyadova, F. (2014). Təlim və tərbiyədə interaktiv texnologiyalar. Bakı: "Ozan" nəşriyyatı, 88 s.
4. Əhmədov, C. (1983). Ədəbiyyat tədrisində bədii təhlil. Bakı: "Maarif" nəşriyyatı, 130 s.
5. Əhmədov, C., Babayev, A., Mikayılov, Ş. (1966). Orta məktəbdə ədəbiyyat tədrisi. II hissə. Bakı: "Maarif" nəşriyyatı, 310 s.
6. Hacıyev, A. (2003). Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı: "Təhsil" nəşriyyatı, 318 s.
7. Həsənli, B., Quliyev, Ə., Hüseynoğlu, S. (2007). Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 288 s.
8. Xəlilova, A. (2011). Dərsdə yeni təlim metodlarının seçilməsi və tətbiqi. Azərbaycan dili və ədəbiyyatın tədrisi. №3, s.23-27.


Göndərilib: 27.10.2023 Qəbul edilib: 09.01.2024